# RZAYEV QASIM QARA OĞLU



5 may 1970-ci ildə Tovuz rayonunun Əlibəyli kəndində anadan olmuşdur. 1987-ci ildə orta məktəbi bitirmiş, sonra sürücülük ixtisasına yiyələnmişdir. 1988-ci ildə sovet ordusu sıralarına çağırılmışdır. Ukrayna Respublikasının Nikopol şəhərində hərbi hissədə artilleriya bölməsində xidmət etmişdir. 1990-cı ildə hərbi xidmətini başa vuraraq vətənə qayıtmış, könüllü özünümüdafiə dəstəsinə yazılmışdır. O, idarə etdiyi avtomobilə mərmiatan qurğu qoşaraq Muncuqlu, Koxa-Nəbi, Ağdam, Əlibəyli, Hacallı kəndlərinin, eləcə də Tovuz rayonunun sərhədlərinin qorunmasında xüsusi qəhrəmanlıq nümayiş etdirmişdir. 1992-ci il 11 fevral "Qan çanağı" deyilən ərazidən hücuma keçən erməni yaraqlılarını məhv etməklə yanaşı onlara məxsus bir PDM-ni də, alova bürüdülər. 1992-ci il mayın 14-də düşmən Tovuzun sərhəd kəndlərinə hücuma keçərkən Qasım özünü döyüş nöqtəsinə yetirərək qeyri-bərabər döyüşdə mərdlik göstərmiş, gərgin gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Tovuz rayonunun Əlibəyli kənd qəbristanlığında dəfn edilmişdir. Ailəli idi. Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Rzayev Qasım Qara oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Tovuz Rayonunun Hacallı kənd orta məktəbi Milli Qəhrəmanın adını daşıyır.